Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 137 (1658) CÜMƏ AXŞAMI, 3 iyul 1997-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | İNDEKS 0001 | Qiyməti 700 manat

# АЗӘРБАЈЧАН ПРЕЗИДЕНТИ ҺЕЈДӘР ӘЛИЈЕВ БҮТҮН КҮРЧҮСТАНЫН КАТОЛИКОС-ПАТРИАРХЫ II ИЛИЈАНЫ ВӘ ОНУН БАШЧЫЛЫГ ЕТДИЈИ НҮМАЈӘНДӘ ҺЕЈ'ӘТИНИ ГӘБУЛ ЕТМИШДИР



Ијулун 2-дә Азәрбајчан президенти Һејдәр Әлијев Президент сарајында бүтүн Күрчүстанын католикос-патриархы Әгдәси-Шәриф II Илијаны вә онун башчылыг етдији нүмајәндә һеј'әтини гәбул етмишдир.

Гонағы сәмимијјәтлә саламлајан дөвләтимизин башчысы Һејдәр Әлијев Күрчүстанын али руһани рәһбәринин республикамыза сәфәриндән мәмнун галдығыны билдирди. Күрчүстан илә Азәрбајчан арасында тарихи достлуг вә гардашлыг әлагәләринин индики нәсил үчүн дә бөјүк бир сәрвәт олдуғуну нәзәрә чарпдыран республикамызын рәһбәри ики гоншу мүстәгил дөвләтин мүнасибәтләринин мәһз бу зәмин үзәриндә гурулмасыны мүсбәт гијмәтләндирәрәк деди ки, тарихдә бәлкә дә һеч вахт бу гәдәр јүксәк сәвијјәјә чатмамыш әмәкдашлығымыз халгларымызын, вәтәндашларымызын ән али марагларына там чаваб верир.

Гафгазда, о чүмләдән Азәрбајчанда вә Күрчүстанда баш вермиш һәрби мүнагишәләрдән, сосиал чәтинликләрдән вә сијаси керкинликләрдән бәһс едән дөвләтимизин башчысы деди ки, бүтүн бунлара көрә өлкәләримизин вә халгларымызын достлуг әлагәләринин даһа да мөһкәмләндирилмәси чох вачибдир. Ермәнистан силаһлы гүввәләринин 1988-чи илдән бәри Азәрбајчана етдији тәчавүздән бәһс едән, бир сыра сәбәбләр, о чүмләдән бә'зи дөвләтләрин Ермәнистана көмәји нәтичәсиндә республикамызын әразисинин 20 фаизинин ишғал олундуғуну, бир милјондан чох вәтәндашымызын јериндән-јурдундан зорла говулараг ағыр вәзијјәтдә јашадығыны нәзәрә чарпдыран, Абхазија вә Чәнуби Осетија һадисәләри илә әлагәдар Күрчүстанын да белә проблемләрлә үзләшмәсиндән сөһбәт ачан республикамызын рәһбәринин фикринчә, мәһз бу амилләр Азәрбајчанла Күрчүстанын әмәкдашлығынын күндән-күнә кенишләндирилмәсини тәләб едир.

Президент Едуард Шеварднадзенин Азәрбајчана вә президент Һејдәр Әлијевин Күрчүстана рәсми сәфәрләринин, кечирилән көрүшләрин, апарылан данышыгларын, әлдә едилән разылыгларын, имзаланан сәнәдләрин өлкәләримиз арасында әлагәләрин инкишафында јени мәрһәлә ачдығыны билдирән вә парламентләримиз арасында јаранмыш әлагәләри мүсбәт гијмәтләндирән дөвләтимизин башчысы өлкәләримизин мүнасибәтләринин даһа да мөһкәмләндирилмәсиндә дин хадимләринин дә мүәјјән хидмәтләри олдуғуну нәзәрә чарпдырды.

Күрчүстанда јашајан азәрбајчанлылара көстәрилән диггәтә көрә президент Шеварднадзеје вә католикос-патриарх II Илијаја тәшәккүрүнү билдирән президент Һејдәр Әлијев Азәрбајчанда јашајан күрчүләрин дә өлкәмизин бәрабәрһүгуглу вәтәндашлары кими гајғы илә әһатә олундугларыны вурғулады.

Өлкәләримиз арасында әмәкдашлығын кенишләндирилмәси саһәсиндә мөвчуд олан бөјүк имканлардан сәмәрәли истифадә едилмәсинин вачиблијини нәзәрә чарпдыран дөвләтимизин башчысы Күрчүстанын дини рәһбәринин Азәрбајчана рәсми сәфәринин бу бахымдан хүсуси әһәмијјәт дашыдығыны сөјләди.

Вахт тапыб онлары гәбул етдијинә көрә өлкәмизин рәһбәринә миннәтдарлыг едән вә президент Һејдәр Әлијев илә көрүшдән шәрәф дујдугларыны билдирән һөрмәтли гонаг, президент Едуард Шеварднадзенин достлуг вә гардашлыг саламларыны дөвләтимизин башчысына чатдырды.

II Илија даһа сонра деди: Чәнаб президент, Азәрбајчан халгы хошбәхтдир ки, онун Сизин кими мүдрик вә сәриштәли президенти вардыр. О чүмләдән күрчү халгы да бу сәбәбдән өзүнү хошбәхт сајыр. Халгларымызын бөјүк чәтинликләрлә үзләшдикләри кечид дөврүндә дөвләтләримизин гаршысында дуран бөјүк проблемләри јалныз Сизин кими мүдрик рәһбәрләр һәлл едә биләрләр".

Әсрин әввәлиндә баш верән фәлакәтин тәкрар едилмәмәси үчүн дөвләтләримизин мүстәгиллијинин горуныб сахланмасынын вачиблијини нәзәрә чарпдыран һөрмәтли гонаг әмин олдуғуну билдирди ки, һәр ики өлкәнин тәчрүбәли дөвләт башчыларынын көрдүјү тәдбирләр нәтичәсиндә республикаларымызын әрази бүтөвлүјү тезликлә тә'мин едиләчәкдир. II Илија деди: Мән әминәм ки, Аллаһын вә бизә дост өлкәләрин көмәји илә Азәрбајчанда вә Күрчүстанда олан проблемләр тезликлә өз мүсбәт һәллини тапачагдыр.

Һөрмәтли гонаг Азәрбајчан нефтини дүнја базарына чыхарачаг кәмәрин Күрчүстандан кечмәсинә көстәрдији көмәјә вә Күрчүстанын Бакыдакы сәфирлијинә бөјүк диггәт јетирдијинә көрә дөвләтимизин башчысы Һејдәр Әлијевә күрчү халгы адындан вә өз адындан дәрин миннәтдарлығыны билдирди. О, Азәрбајчанын Күрчүстана көстәрдији даими дәстәкдән вә көмәкдән разылыгла бәһс едәрәк, Шәмкир Рајон Ичра Һакимијјәтинин башчысы Аслан Аслановун бу саһәдәки хидмәтләриндән дә сөһбәт ачды.

Һејдәр Әлијев кими дүнја шөһрәтли бир президенти олдуғуна вә онун һакимијјәтә гајыдыш күнүнүн Азәрбајчан халгынын Милли Гуртулуш күнү е'лан едилмәсинә көрә халгымызы үрәкдән тәбрик едән II Илија өзүнүн дә буна галбән севиндијини вурғулады.

Дөвләтимизин башчысы Һејдәр Әлијев онун һаггында вә республикамыз барәдә сөјләдији хош сөзләрә көрә II Илијаја миннәтдарлығыны билдирди.

Гәбулда Азәрбајчан Милли Мәчлисинин сәдри Муртуз Әләскәров, дөвләт мүшавири Һидајәт Оручов, Гафгаз Мүсәлманлары Идарәсинин сәдри шејхүлислам Һачы Аллаһшүкүр Пашазадә, Азәрбајчанын Күрчүстандакы сәфири Һачан Һачыјев, Күрчүстанын республикамыздакы сәфири Кеорки Чантурија иштирак едирдиләр.

**АзәрТАч**

**Фото Ј.ХӘЛИЛОВУНДУР**